BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2013*

UOT 94(479.24)

# «ERMƏNİ MƏSƏLƏSİ»NİN YARANMASININ İLKİN SƏBƏBLƏRİ

**S.M.SEYİDOVA**
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***ssevinj@yahoo.com***

*Məqalədə erməni məsələsinin Osmanlı imperiyasının ərazisində yaranmasının ilkin səbəbləri nəzərdən keçirilmiş, Osmanlı imperiyası ərazisində erməni millətçilərinin fəaliyyətlərinin iri imperialist dövlətləri tərəfindən dəstəklənməsi və ermənilərin türk torpaqları hesabına erməni dövləti yaratmaq məqsədini güddükləri sübuta yetirilmişdir.*

**Açar sözlər:** erməni məsələsi, erməni kilsəsi, notabllar şurası, erməni ideologiyası, Rus-türk müharibələri

Məqalədə erməni məsələsinin yaranmasının ilkin səbəbləri təhlil edilmişdir. Erməni məsələsi XIX əsrdə meydana çıxan Şərq məsələsinin bir hissəsi idi. Bu məsələnin iki tərəfi mövcud idi. Birinci, böyük dövlətlər Osmanlı imperiyasını bölməkdən ötrü onu zəiflətməyə çalışırdılar. İkinci, ermənilər öz burjuaziyalarının rəhbərliyi altında Osmanlı imperiyası ərazisində öz dövlətlərini yaratmaq istəyirdilər. Məqalədə tarix boyu erməni kilsəsinin erməni xalqının həyatına rəhbərlik etdiyi göstərilir. Konstantinopolun fəthindən (1453) sonra Osmanlı hökuməti İstanbulda patriarxlıq yaratmağa icazə vermişdi, həmçinin Notabllar şurası yaradılmışdı ki, burada maliyyə aristokratiyasının başçıları toplaşırdı. Ruhanilər kimi Notabllar şurası da xalqa rəhbərlik edirdi (1, 7). Məqalədə Osmanlı hökuməti tərəfindən yaradılan bu əlverişli şəraitdən ermənilərin məharətlə istifadə etməsi, erməni dövləti yaratmaq məqsədilə hər vasitələrə əl atması təhlil edilir. Erməni burjuaziyasının inkişafında Suriya, Livan və Amerikada yaşayan tacirlərdən kömək və xarici kapitalın axını da mühüm rol oynamışdı. Qərb dövlətləri Osmanlı imperiyasını özündən iqtisadi cəhətdən asılı salmaq, Qərb kapitalını burada yerləşdirmək üçün erməni burjuaziyasından dayaq nöqtəsi kimi istifadə etməyə cəhd göstərmişdilər. Bu məqsədlə onlar ilk növbədə ruhanilərdən-missionerlərdən istifadə etmişdilər. Xarici missionerlər ermənilərin arasında protestant təriqətini təbliğ edərək, onları Qərb mədəniyyətinə yaxınlaşdırmağa çalışmışlar. Qərb ticarət kapitalı bu əhalinin orta ticarət burjuaziyasından vasitəçi kimi istifadə edirdi. Öz növbəsində bu burju-

aziyanın inkişafı milli hərəkatın inkişafına təkan verdi. Erməni məsələsinin meydana çıxmasında böyük Avropa dövlətlərinin öz maraqları var idi. Avropanın böyük dövlətlərinin Osmanlı imperiyasına dair siyasətləri ardıcıllıqda fərqlənmirdi.

XVIII əsrin əvvəllərində Avropanın böyük dövlətlərindən biri Avstriya idi. Avstriya imperiyası Osmanlı imperiyası ilə bir neçə dəfə müharibələr aparmışdı. I (1768-1774-cü illər) və II (1787-1792-ci illər) rus-türk müharibələrində Avstriya da iştirak etmişdi (5, 99-109). Lakin Avstriya heç də Rusiyanın Balkanlarda yeritdiyi siyasətdən razı deyildi. XVIII əsrin əvvəllərində İngiltərə öz ərazilərini Fransa və İspaniyanın müstəmləkələri hesabına genişləndirdi. 1774-cü il Kiçik Qaynarca müqaviləsindən sonra İngiltərənin Osmanlı imperiyasına olan marağı daha da gücləndi (3, 27). 1828-1829-cu illərdə Rusiyanın Qafqazı işğal etməsi İngiltərənin narazılığına səbəb olur. İngiltərə Hindistandakı müstəmləkələrin təhlükə qarşısında olduğunu başa düşür. Bu səbəbdən İngiltərə Krım müharibəsində (1853-1856-cı illər) Rusiyanın mənafeyini müdafiə etmir. 1877-1878-ci illər rus-türk müharibəsində Osmanlı imperiyası məğlub olur. 1880-ci ildən etibarən Qladstonun baş nazirliyi dövründə İngiltərənin Osmanlı imperiyasına dair siyasətində dəyişiklik baş verir. Buna Qladsanun dediyi sözlər parlaq sübutdur. O deyirdi: «Ermənistana xidmət etmək sivilizasiyaya xidmət etmək deməkdir» (10, 66). Məhz Qladstonun baş nazirliyindən başlayaraq İngiltərəyə artıq vahid Osmanlı imperiyası lazım olmadı. V.F.Mayevskinin təbirincə desək «ingilis hipnozunun» təsiri altında olan ermənilər isə İngiltərəyə yalnız Osmanlı imperiyasını dağıtmaq üçün lazım oldular (12, 43-44). Fransanın Osmanlı imperiyası ilə münasibətləri əsasən imperator Napoleonun Misirə yürüşü dövründən başlanmışdır (Sultan Süleymanın hakimiyyəti illərində Fransa ilə Osmanlı imperiyası arasında əlaqələr olmuşdur). Lakin Vyana konqresinin qərarlarına görə Fransanın Avropa siyasətində həlledici rol oynamaq hüququ yox idi. 1878-ci ildə keçirilən Berlin konqresində Fransa Almaniya və İngiltərə ilə yaxınlaşmağa başladı. 1893-cü ildə Fransa Rusiya ilə, 1904-cü ildə isə İngiltərə ilə saziş bağlayaraq, Antanta ittifaqına daxil oldu. Bundan sonra, Fransa da Osmanlı imperiyasının torpaqlarının bölünməsində fəal rol oynamağa başladı (3, 28).

Osmanlı imperiyasının ərazisinin bölünməsinin arzusunda olan dövlətlərdən biri də Rusiya idi. Osmanlı imperiyasının tənəzzül dövrünün Rusiya ilə Kiçik Qaynarca sülh müqaviləsinin bağlanmasından başlanmasını hesab etmək olar. Məhz bu dövrdə Avropanın bir sıra dövlətləri Osmanlı dövlətinin daxili işlərinə qarışmağa başladılar. «Erməni məsələsi» getdikcə ümumavropa əhəmiyyəti kəsb etməyə başladı və nəhayət ilk dəfə Berlin konqresində müzakirəyə qoyuldu. Berlin konqresinə qədər Osmanlı dövlətində hadisələrin inkişafına nəzər salaq. Artıq qeyd olunduğu kimi, İstanbulda erməni patriarxlığı yarandıqdan sonra İstanbula böyük miqdarda ermənilər köçdü. A.Sancyanın verdiyi məlumata əsasən XIX əsrin əvvəllərində İstanbulda 150 min erməni əhalisi yaşayırdı ki, bu da ümumiyyətlə, Osmanlı imperiyasındakı ən iri erməni

icması sayılırdı (11, 69).Tarixdə erməniləri Osmanlı imperiyası əleyhinə qaldıran ilk dövlət Rusiya olmuşdu (6, 25). Ruslar Səfəvi-Osmanlı dövlətləri arasındakı gərgin münasibətlərdən istifadə edərək I Pyotrun dövründə Azərbaycan ərazisinə daxil olmuş və Xəzərsahili vilayətlərin bir hissəsini zəbt etmişlər. Ermənilərin ruslarla eyni dindən olması Rusiyanın əlinə böyük bir fürsət vermişdi (6, 25). I Pyotrun ermənilərə münasibətini onun dediyi sözlər daha aydın göstərir. «Sizi bir xristian kimi və xristianlığın naminə himayədən məhrum etmək mümkün deyildir» (10, 46). Erməni xadimi İsrail Ori I Pyotra nəinki Azərbaycana, bütövlükdə Cənubi Qafqaza, həmçinin Osmanlı imperiyasına da yürüş etməyi təklif etmişdi (8, 245). I Pyotrun ölümü onun Azərbaycan və Osmanlı imperiyası ərazisində Erməni dövlətini yaratmaq planlarını pozdu. 1774-cü il Rusiya ilə Osmanlı imperiyası arasında bağlanan Kiçik-Qaynarca sülh müqaviləsindən sonra, ruslar Kabardanı ələ keçirdilər və Osmanlı imperiyasında xristianlara himayə etmək hüququnu əldə etdilər (3, 23). 1783-cü ildə Rusiya Krımı işğal edərək Qara dəniz sahillərinə çıxdı. II rus-türk müharibəsi (1787-1792) illərində heç bir köklü dəyişiklik baş vermədi (3, 23). Hər iki rus-türk müharibələri dövründə ermənilər özgə ərazilərində dövlət yaratmaq arzularından əl çəkmədilər (2, 149-151). 1760-cı ildən bu istiqamətdə fəaliyyətə başlayan İran tacirinin oğlu İosif Emin 1761-ci ildə Peterburqa gələrək kansler Vorontsovla görüşmüş və «gürcü-erməni» dövlətinin layihəsini ona təqdim etmişdi. Bu planı gürcü çarı II İrakli də bəyənmişdi. Lakin sonradan o, erməni katalikosu Simeonun «gürcü-erməni» dövlətinin layihəsinin əleyhinə olduğunu bəhanə edərək bu plandan əl çəkdi. Əslində II İrakli Osmanlı imperiyası ilə münaqişənin Gürcüstanın xeyrinə olmadığını başa düşürdü (9, 392). 1801-ci ildə Rusiya Gürcüstanı özünə birləşdirdi. 1813-cü ildə İranla Gülüstan müqaviləsinə əsasən Şimali Azərbaycan Rusiya imperiyasının tərkibinə keçdi. 1828-ci ildə Türkmənçay müqaviləsinə əsasən Naxçıvan və İrəvan xanlıqları Rusiya tərəfindən işğal edildi. Beləliklə, İrəvanda yerləşən Eçmiədzin (Üçmüədzin) katalikosluğu Rusiya ərazisinə keçdi (3, 23). 1828-ci ildə başlanan rus-türk müharibəsi illərində general Paskeviçin başçılığı altında rus qoşunları Ərzuruma qədər gəldilər. 1829-cu il sentyabrın 14-də bağlanmış Ədirnə müqaviləsinə əsasən Rusiya Dunayın deltasındakı adaları, Kuban çayının mənsəbindən müqəddəs Nikolay körpüsünədək Qara dəniz sahillərini Axaltsixi, Axalkalaki (Axalkələk) və Ağçuranı, həmçinin qızıl pulla 33 milyon manat təzminat aldı (5, 130-131).

Beləliklə, Osmanlı imeperiyası Qafqazdakı torpaqlarını itirdi. General Paskeviçin Ərzurum yürüşü zamanı ermənilər rus qoşunları şərəfinə nümayiş təşkil etdilər. Ədirnə müqaviləsinin şərtlərinə görə Ərzurum və Alaşkirdin erməni əhalisi Qafqaza köçə bilərdi. 100000 erməni Qafqaza köçərək İrəvan, Axalkalakidə yerləşdirildi. Azərbaycan ərazisində erməni əhalisinin sayı süni surətdə artırıldı (3, 23). Türkmənçay müqaviləsindən sonra rus çarı İrəvan və Naxçıvan xanlıqlarının erməni vilayətləri olduğunu elan etdi. Ermənilər bu ərazidə Rusiyanın erməni çarlığı yaradacağını və rus çarının «erməni çarı»

titulunu qəbul edəcəyinə ümid edirdilər. Rusiya isə erməni çarlığını yaratmağı planlaşdırmırdı. Rusiya I Pyotr və II Yekaterinanın «Bizansı ələ keçirmək» arzusundan əl çəkmirdi.

Ədirnə sülhündən sonra Osmanlı imperiyasında bir sıra dəyişikliklər həyata keçirildi. 1839-cu il iyulun 1-də Osmanlı imperiyasında Sultan I Əbdülməcid hakimiyyətə gəldi. Həmin il «tənzimat»ın başlanması haqqında manifest elan edildi. Tənzimat elan edildikdən sonra erməni icmasının həyatında bir sıra dəyişikliklər baş verdi. 1830-cu ildə erməni katolik icması rəsmiləşdi və onun rəhbərliyinə A.Çukuryan təyin edildi (3, 24). 1859-cu ildə erməni-protestant icması rəsmiləşdi. 1844-cü ildə Notabllar şurasının (Milli Şura) tərkibi dəyişdi (3, 24). 1847-ci ildə bu şurada əyanların sayı azaldıldı. 1848-ci ildə İstanbul patriarxlığının başında Akop Serobyan durdu (3, 24). Bu dəyişikliklərin həyata keçirilməsinə 1856-cı il fevralın 18-də islahatlar haqqında sultanın yeni manifestinin elanı kömək etdi (3, 24). Manifestdə Osmanlı dövlətində yaşayan bütün təbəələrin hüquq bərabərliyi elan edildi.1856-cı il manifesti məcburiyyətdən irəli gələn zərurət idi. Çünki Krım müharibəsindən sonra, Osmanlı imperiyasında yaşayan bütün xristianlara böyük dövlətlər himayəçilik edirdilər. Öz növbəsində bu manifestdən ermənilər məharətlə istifadə etdilər. 1863-cü ildə 99 maddədən ibarət «Erməni xalqının nizamnaməsi» qəbul edildi (3, 25).

«Erməni məsələsi» adlandırılan məsələ rus-türk ziddiyyətlərinin məhsulu kimi ortaya çıxdığı üçün 1877-1878-ci illər Rus-türk müharibəsini ətraflı təhlil edək. Bu müharibə Osmanlı imperiyasının tarixinə müharibələrdən ən faciəlisi kimi daxil olmuşdu. 1877-ci il aprelin 24-də müharibə elan edilən kimi erməni mənşəli general Loris Melikovun başçılığı altında rus qoşunları hücuma keçdilər və Bəyazid, Ərdəhan rusların əlinə keçdi (5, 176-182). Türk qoşunları Əhməd Muxtar paşanın başçılığı altında müqavimət göstərsələr də, rus qoşunları Qarsı ələ keçirdilər. Ərzuruma yalnız sülh müqaviləsi bağlandıqdan sonra rus qoşunları daxil oldu. Qərb cəbhəsində Plevna şəhəri rusların əlinə keçdikdən sonra, İstanbula yol açıq idi. Osmanlı imperiyası sülh istəməyə məcbur oldu. 1878-ci il yanvarın 31-də Ədirnədə müharibəni dayandırmaq haqqına müqavilə imzalandı (5, 176-182). Ədirnə müqaviləsində ermənilərə aid heç bir bənd müzakirə edilməmişdi. Lakin bu danışıqların gedişində Erməni Milli Məclisi gizli şəkildə Eçmiədzin katalikosu vasitəsilə rus çarına memorandum göndərdi. Erməni tarixçisi Saruxanın verdiyi məlumata əsasən memorandumda aşağıdakı üç maddə əsasında erməni məsələsi həll edilməli idi: 1. Fərat çayına qədər ərazilərin Rusiyaya birləşdirilməsi. 2. Birləşmə mümkün olmayacağı halda, ermənilərə, bolqarlara aid olan bütün imtiyazlar veriləcək. 3. İslahat keçiriləcəyi müddətdə rus qoşunları Osmanlı imperiyası ərazisindən çıxmayacaqlar (11, 106).

San-Stefano danışıqlarının gedişində patriarx Nerses rusların iqamətgahına gələrək, böyük knyaz Nikolaya rəsmi müraciət etmiş və müqaviləyə ermənilər haqqında maddə salınmasını xahiş etmişdi (7, 14-17). Erməni kilsəsinin fəaliyyəti bu dəfə uğurlu oldu. San-Stefano ilkin sülh müqaviləsinin 16-cı mad-

dəsi ermənilərə həsr edildi. Bu maddəyə görə Osmanlı imperiyasının erməni vilayətlərində dərhal lazımi islahatlar keçirilməli idi. Bu islahatlar keçirilənədək rus qoşunları işğal etdikləri Osmanlı imperiyasının torpaqlarını öz əllərində saxlamaqda davam edirdilər. Ermənilər muxtariyyət almırdılar. Lakin Batum, Qars, Ərdəhan, hətta Ərzurum və ermənilərin nisbi çoxluq təşkil etdikləri vilayətlər Rusiyanın protektoratlığı altında qalmalı idilər. Çar Rusiyanın «özlərini onun himayədarlığına vermiş ermənilərin yaşadığı dağlıq ərazilərə möhkəm qədəm basmaq cəhdi» Yaxın Şərqdəki əsas rəqibləri İngiltərə, Fransa, Almaniya və Avstriya tərəfindən dəf edildi (1, 10).

Almaniyanın kansleri Bismarkın təşəbbüsü ilə San-Stefano sülhünün şərtlərinə yenidən baxılması üçün Berlin konqresinə qədər ermənilər bir sıra tədbirlər həyata keçirtdilər. 1878-ci il martın 17-də patriarx Nerses İngiltərənin səfiri Leyerdin yanına gələrək, Osmanlı imperiyasındakı ermənilərin Ermənistan dövləti yaratmaq tələblərini ona çatdırdı. Nerses Van, Sivas, Diyarbəkir, keçmiş Kilikiya çarlığının ərazilərinin ermənilərə verilməsini tələb edirdi (5, 183-192). Patriarx Nerses öz nümayəndələri Xrimyan və Xoren Narbəyi Paris, London və Berlinə göndərdi. Erməni nümayəndələri iyunun 13-də Berlinə gəldilər və Osmanlı imperiyasının ərazisində «Erməni dövləti»nin yaranmasını nəzərdə tutan layihəni Avropa dövlətlərinin konqresindəki nümayəndələrinə təqdim etdilər (4, 30-35). Layihə 6 benddən ibarət idi. Layihənin məzmunu üzərində ətraflı dayanmayacayıq. Bu layihə Berlin traktatına 61-ci maddənin salınmasına müəyyən təsir göstərdi. 61-ci maddəyə görə Osmanlı hökuməti ermənilər yaşayan vilayətlərdə onların təhlükəsizliyini təmin etməli və islahatlar keçirməli idi (4, 176-177). Müqaviləyə görə İngiltərə Osmanlı imperiyasını Rusiyadan qorumaq öhdəliyi müqabilində Kipr adasını aldı (4, 176-177).

Ermənilər Berlini müsbət nəticə əldə etmədən tərk etsələr də, bu dövrdən başlayaraq «erməni məsələsi» beynəlxalq siyasətdə öz yerini tutdu və Avropanın böyük dövlətlərinə Osmanlı dövlətinin daxili işlərinə qarışmaq üçün zəmin yaratdı.

Məhz bu dövrdən etibarən erməni millətçilərinin fəaliyyəti daha da genişlənməyə başladı və XIX əsrin 80-ci illərindən başlayaraq bu günə qədər ermənilər öz məkrli niyyətlərini həyata keçirmək üçün ən ağır cinayət üsullarından biri olan «terror»a əl atdılar.

**ƏDƏBİYYAT**


1. Qurko-Kryajin V. Erməni məsələsi. Bakı: Kommunist, 1990, 31 s.
2. Nəcəfli Gültəkin. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı: Nurlan, 2007, 248 s.
3. Seyidova S.M., Ramazan U. Osmanlı imperiyasında milli münasibətlər - erməni məsələsi (XIX əsrin II yarısı-XX əsrin I rübü): Dərs vəsaiti. Bakı: Adiloğlu, 2002, 80s.
4. Hasan Kundakçı, E.Korgeneral. Emperializmin kullandığı ermeniler. Ankara: Türkiye qazilər Vakfı yayınları, 2001, 170 s.
5. Receb Şahin. Tarix boyunca türk idarelerinin ermeni politikaları. İstanbul, Kamer yayınları, 1998, 150 s.

6. Süleyman Koçabaş. Ermeni meselesi nedir, ne degildir? Kayseri: Vatan yayanları, 1985, s. 25.
7. Şenol Kantarcı. Ermeni sorunu:Pencereden Bakmak ya da manzaranın bütününü görmek. İsparta: T.C.Süleyman Demiral Universitesi Yayınlar 34, 2005, 242 s.
8. История армянского народа. Ереван: Айпетрат, 1951, 291 с.
9. История Грузии. Тбилиси: 1964, стр. 392.
10. Киракосян Дж.С. Буржуазная дипломатия и Армения (70-е годы XIX века). Ереван: Ереванский Университет, 1981, 310 с.
11. Кямуран Гюрюн. Армянское досье. Баку: Язычы, 1993, 372 с.
12. Маевский В. Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса. Баку: Шур, 1993, 48 с.

## ОСНОВНЫЕ ПРИЧИНЫ ПРОИСХОЖДЕНИЯ «АРМЯНСКОГО ВОПРОСА»

**С.М.СЕИДОВА**

### РЕЗЮМЕ

В статье рассматриваются основные причины происхождения «армянского вопроса» на территории Османской империи. Доказано, что деятельность армянских националистов поддерживалась большими империалистическими государствами, которая была направлена против Османской империи и преследовала цели создания армянского государство за счет турецких земель.

**Ключевые слова:** армянский вопрос, армянская церковь, совет Нотаблов, армянская идеология, русско-турецкие войны

## THE PRIMARY REASONS OF THE ORIGIN OF «THE ARMENIAN QUESTION»

**S.M.SEYIDOVA**

### SUMMARY

The article considers the primary reasons of the origin of «The Armenian Question» in the territories of the Ottoman Empire. It is proved that the activity of the Armenian nationalists was maintained by large imperialist states and was directed against the Ottoman Empire and pursued the purpose of creating the Armenian state at the expense of Turkish lands.

**Key words:** Armenian question, Armenian church, Notables Council, Armenian ideology, Russian –Turkish wars